# Azərbaycan nümayəndə heyəti Belarusda səfərdə olub

22-23 sentyabr tarixlərində Belarus Respublikasının Qrodno şəhərində "Evroregion "Ne-



man-2017" universal sərgi yarmarkası və şəhərin 889-cu ildönümünə həsr edilmiş bayram tədbirləri keçirilib. Tədbirlərə Qrodno şəhəri ilə qardaşlaşmış Qəbələ rayonunun rəhbərliyi də dəvət olunub.

Tədbirlərdə iştirak etmək



üçün Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti və Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov Qrodno şəhərinə səfər edib. Səfərin ilk günündə nümayəndə heyətimizin üzvləri Qrodno şəhərindəki tarix-mədəniyyət abidələri ilə tanış olub.

Qrodno vilayətinin qubernatoru Vladimir Kravtsov tədbirə gələn nümayəndə heyətlərinin başçılarını qəbul edib. Qəbulda Belarusda akkreditə olunmuş diplomatik nümayəndəliklərin başçıları - Qırğızıstanın və Slovakiyanın səfirləri, Rusiyanın Brestdəki baş konsulu, bu ölkənin ticarət nümayəndəliyinin başçısı, Macarıstanın ticarət müşaviri, Ukrayna səfirliyinin müşaviri, Polşa sərhədyanı bölgələrinin nümayəndələri, Səbuhi Abdullayev, Lətif Qəndilov və digər rəsmi şəxslər iştirak ediblər. Vladimir Kravtsov onlara uğurlu əməkdaşlıq imkanları və yeni müqavilələrin imzalanmasını arzulayıb.

Sonra "Qrodno sərhədlərin kəsişməsində" adlı Beynəlxalq İnvestisiya Forumunun plenar iclasının açılışı olub. Plenar iclasda Qrodno vilayətinin qubernatoru Vladimir Kravtsov, Belarus Respublikası Prezidentinin köməkçisi - Qrodno vilayəti üzrə kurator Sergey Rovneyko, iqtisadiyyat nazirinin müavini Pavel Utyupin və digər dövlət orqanlarının təmsilçiləri çıxış ediblər.

Forum başa çatdıqdan sonra qubernator iştirakçı dövlətlərin nümayəndələri ilə birlikdə "Evroregion "Neman-2017" universal sərgi-yarmarkanın rəsmi açılış mərasimində iştirak edib. Sərgiyə 15 ölkədən 400-dən çox iştirakçı qatılıb, 1,2 hektarlıq sahədə 150 pavilyon qurulub. Azərbaycanı bu sərgidə "Gilan Holding" şirkəti və "ASPİ- AQRO" MMC təmsil edib.

Açılışdan sonra Vladimir Kravtsov Belarus Respublikasının dövlət rəsmiləri ilə birlikdə sərgi-yarmarkanı gəzib, o cümlədən ölkəmizin stendinə tamaşa edib. Azərbaycan Respublikası nümayəndə heyətinin rəhbəri Səbuhi Abdullayev qubernatora ölkəmizin turizm imkanları və "Gilan Holding" şirkəti barədə ətraflı məlumat verib.

Ölkəmizə aid stenddə "Gilan" şirkətinə və "ASPİ-AQRO" MMC məxsus müxtəlif çeşidli şirələr, şərablar və çoxlu sayda digər kənd təsərrüfat və yeyinti sənayesi məhsulları nümayiş etdirilib, Azərbaycanın, o cümlədən Qəbələnin turizm imkan-




larını əks etdirən jurnallar və bukletlər təqdim olunub. Azərbaycan stendi sərgidə ən gözəl və zəngin stendlərdən biri kimi qiymətləndirilib. Belə ki, bu stenddə, həmçinin sərgiyə qoyulmuş məhsulların geniş dequstasiyası da təşkil edilib.

Azərbaycan nümayəndə heyəti Qrodno şəhərinin 889-cu il dönümünə həsr edilmiş tədbirlərdə də iştirak edib.

Səbuhi Abdullayev Qrodno vilayətinin qubernatoru Vladimir Kravtsov və Qrodno şəhərinin meri Meçislav Qoy ilə ayrıca ikitərəfli görüşlər də keçirib. Görüşlərdə sənaye, mədəniyyət, turizm və digər sahələr üzrə əlaqələrin perspektivləri müzakirə edilib.

Səbuhi Abdullayev tərəfindən hər iki rəsmiyə hədiyyələr, o cümlədən Qrodno şəhərinin xalça üzərində toxunmuş gerbi təqdim olunub. Vladimir Kravtsov və Meçislav Qoy Azərbaycanla sənaye və turizm sahələrində əməkdaşlığa hazır olduqlarını bildiriblər və Azərbaycan investorlarını Qrodnoya sərmayə qoymağa dəvət ediblər.

Səbuhi Abdullayev və Lətif Qəndilov gələn il Qrodno şəhərinin 890 illik yubiley tədbirlərində iştirak etmək üçün Belarusa dəvət olunublar.

Səbuhi Abdullayev Qrodno şəhərinin rəhbərliyini onlara uyğun olan tarixdə Qəbələyə dəvət edib. Dəvət məmnuniyyətlə qəbul edilib.

**"Qəbələ"**

# Müasir tariximizin şanlı günlərindən biri–3 oktyabr

***Oktyabrın 3-də xalqımızın ümummilli lideri Heydər Əliyevin birinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 24 ili tamam oldu.***

1993-cü ilin təlatümlü may-iyun ayları ahıl və orta yaşlı azərbaycanlıların yaxşı yadındadır. Gənclərimiz isə həmin günlərdə ölkəmizin siyasi-ictimai həyatında baş verənlərlə kitablarda verilmiş yazılarla, yaşlıların xatirələri vasitəsilə tanış olurlar. Bütün hadisələri isə çox işlənmiş və yerinə düşən bir ifadə ilə anlatmaq mümkündür.O günlər Azərbaycanın dünya xəritəsindən silinməsi təhlükəsi yaranmışdı. Bu təhlükəni xalqın haqlı olaraq böyük ümid bəslədiyi Heydər Əliyev öz misilsiz dühası ilə aradan qaldırdı.

1993-cü ilin iyunun 15-də xalqın təkidli tələbi ilə Bakıya gələrək Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əliyev həmin ilin oktyabr ayının 3-də respublikamızın demokratik və azad şəkildə keçirilən prezident seçkilərində böyük səs çoxluğu ilə ölkə başçısı seçildi.

Oktyabr ayının 10-da keçirilən təntənəli andiçmə mərasimində Prezident Heydər Əliyev xalqın qarşısında öz böyük məsuliyyətindən danışaraq demişdi:

«Azərbaycan Respublikası müstəqilliyini olduqca mürəkkəb bir şəraitdə əldə etmişdir. Bizim üçün ən ağırı Azərbaycanın yaşadığı müharibə şəraiti, erməni silahlı birləşmələrinin bizim ərazimizə qarşı təcavüzü, bu təcavüz nəticəsində Azərbaycan xalqının üzərinə düşən bəlalardır. Buna görə qarşımızda duran əsas məsələ respublikanı müharibə vəziyyətindən çıxarmaq və vətəndaşların həyatı üçün dinc şərait yaratmaqdır».

Ulu öndərin rəhbərliyi ilə qısa müddətdə Azərbaycandakı bütün neqativ halların qarşısı alındı, cinayətkar silahlı dəstələr ləğv edildi, ictimai-siyasi sabitlik təmin olundu. İqtisadi islahatlar başlandı və inkişaf üçün zəmin yaradıldı.

Heydər Əliyev dahiyanə uzaqgörənliklə başa duşurdu ki, böyük dünya oyunçularının marağında olan Dağlıq Qarabağ münaqişəsini dünyada olan onlarla belə münaqişə kimi müharibə yolu ilə həll etmək mümkün deyil. Ona görə də ulu öndərin rəhbərliyi ilə 1994-cü ilin may ayında Ermənistanla atəşkəs razılaşması əldə edildi. Bu Azərbaycana bütün sahələrdə, o cümlədən ordu quruculuğunda misilsiz inkişaf yolu keçməyə imkan yaratdı.

Bu gün Ermənistan quldur dəstələrini qısa müddətdə işğal edilmiş torpaqlarımızdan qovmağa qadir olan güclü ordumuz var. Ölkə Prezidenti cənab İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışında dediyi kimi «Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin, eyni zamanda, Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyalarına uyğun olaraq öz vətəndaşlarını qoruyacaq və təcavüzkarı yenidən cəzalandıracaq».

Ulu öndərin 1993-cü ildən başladığı hərtərəfli güclü inkişaf etmiş Azərbaycan qurmaq ideyası və yolu çağdaş tariximizdə Prezident cənab İlham Əliyev tərəfindən siyasi uzaqgörənlik və uğurla həyata keçirilir.

**Qüdrət SƏMƏDOV.**
**«Qəbələ»**